# DİLÇİLİK

*A.Əlizadə. Sadə cümlədə predikativlik anlayışının ənənəvi şərhi*
*// Əlyazmalar yanmır, 2019, №2 (9), s. 176-180.*

UOT: 801.73

**Aytən Əlizadə**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Dövlət Universiteti*
*Bakı ş. Z.Xəlilov küç. 23*
*e-mail: ayka_1968@mail.ru*

## MƏHƏMMƏD İBN ABDULLAH İBN MAHMUDUN "ƏL-KİFƏYƏTU Fİ-N-NƏHV" ƏSƏRİ HAQQINDA

*Hicrətin IX əsrində "Tarixçilərin əmiri" (أمير المؤرخين) ləqəbi ilə tanınmış Əbu Möhsün ibn Tuğri Bərdi yazır: "Allah Təala mənə macal versəydi, hicrətin doqquzuncu əsri (miladi XV əsr) barədə geniş bir əsər yazardım. Həmin dövr həm Şərq, həm də Qərbdə cərəyan edən bir çox ciddi hadisələrlə zəngindir. Məhz həmin dövrdə Qahirə şəhəri ərəb və islam dünyasının mərkəzinə, çoxsaylı və əzəmətli məmlük ordusunun qərərgahına çevrilmişdir. Bu dövrdə məmlük ordusu Şamı tatarların əsarətindən azad etmiş, islam aləminin ağır bəladan qurtarılmasında mühüm rol oynamışdır. Bütün bunlar islam aləminin və Şamın yenidən çiçəklənməsinə, Qahirənin görkəmli alimlər və mütəfəkkirlərlə zənginləşməsinə səbəb olmuşdur".*

***Açar sözlər:*** *sərf, nəhv, lüğət, feil*

### Giriş

*Məmlüklərin hakimiyyət dövründən bəhs edən professor Məhəmməd Həmmadə Mahir yazır: "Bu dövr sözün həqiqi mənasında bütün sahələrdə bir oyanış mərhələsidir". Məmlüklər ümumislam mədəniyyətini monqollar tərəfindən tam şəkildə məhv edilməkdən xilas etmiş, onların Suriyanı və Misiri dağıtmalarına mane olmuşlar. Belə demək olar ki, məhz bu dövrdə ümumislam mədəniyyətinin hamisi rolunda çıxış etmişdir. Bütün bunlar da öz növbəsində elm və mədəniyyət adamlarını bir çox sahələri ehtiva edən əsərlər yazmağa sövq etmişdir. [2, 15]*

Hicrətin IX əsrində Misirdə divan sahiblərindən Şərəfuddin Əl-Ənsarinin, Təlafirinin, Əfifuddin Ət-Tilmasinin, onun oğlu, Əl-Şəbb Əl-Zərif ləqəbi ilə tanınmış Şəmsuddinin, Əl-Busirinin, Əl-Varraqin, İbn Nəbatə Əl-Misrinin, Səfiyyuddin Əl-Hillinin, İbn Əl-Vardinin, Aişə Əl-Bauniyyənin, İbn Nəqibin, Əbdülqəni Əl-Nablisinin və s. şairlərin adlarını qeyd etmək mümkündür. [3,39]

Lüğətçilik hərəkatı nümayəndələrinə gəldikdə, burada لسان العرب lüğətinin müəllifi İbn Mənzun Əl-İfriqinin, القاموس المحيط lüğətinin müəllifi Əl-Firuzəbaddinin və تاج العروس əsərinin sahibi Murtəza Əl-Zübeydinin fəaliyyətini göstərə bilərik.

Humanitar elmlər sahəsində indiyə qədər müsəlman alimlərinin və dünya şərqşünaslarının ümumi və qiymətli istinad mənbəyi hesab edilən fundamental əsərlər ortaya qoyuldu. Həmin əsərlər arasında İbn Əbi Useybiənin عيون الانباء في طبقات الأطباء, İbn Xəldunun وفيات الأعيان, İmadəddin Əl-Qəzvininin عجائب المخلوقات و غرائب الموجودات, İbn Əl-İbərinin تاريخ الدول və digərlərinin adlarını qeyd etmək mümkündür.

Hicrətin doqquzuncu əsri Misir və Şam ölkələrində sözün həqiqi mənasında əzəmətli elmi oyanış dövrü kimi xarakterizə olunur. Həmin əsrdə müəyyən rəhbər dairələrdə idarəçilər arasında ziddiyyətlər və qarşıdurmalara baxmayaraq, alim və mütəfəkkirlərin həvəsləndirilməsi məsələsində xəsisliyə yol verilmir, dövlət xəzinəsindən bu işlərə kifayət qədər vasait sərf olunudu.

Tarixin sözügedən dönəmində (hicrətin VIII-IX əsrlərində) dilçilik elmi xeyli inkişaf etmiş və o, Fəxrəddin Əl-Caribardi, İbn Əl-Nəhhas, İbn Hişam Əl-Nəhvi, "Nağara Kar" ləqəbi ilə tanınmış Əl-Seyyid Abdullah, İbn Əl-Saiğ, İbn Cəmaə və əsəri haqqında bəhs etməyə çalışdığımız Məhəmməd İbn Abdullah İbn Mahmud kimi görkəmli dilçi və filoloqların meydana çıxmasına səbəb olmuşdur.

Qeyd etmək lazımdır ki, yuxarıda qeyd olunanlar həmin əsrlərdə yaşayıb-yaratmış alimlərin sayının dəryada bir qətrə nisbəti kimidir.

Məhəmməd İbn Abdullahın əsərlərinin əksəriyyətinin tarixin dolanbaclarında itib-batmasına baxmayaraq, onun sərf, nəhv və ədəbiyyatşünaslıq sahəsində bir çox əsərlərin müəllifi olması danılmazdır. Alimin dövrümüzə gəlib çatmış ən mühüm əsərlərinə gəldikdə, onları aşağıdakı şəkildə göstərə bilərik.

1) الكفاية في النحو . Məhəmməd İbn Abdullah bildirir ki, o, bu əsəri yazarkən bilavasitə Əl-Rza Əl-Astrabadinin, Əl-Caribərdinin, Əs-Seyyid Abdullahın, İbn Əl-Hacibin "Şafiyə"sinə yazdıqları şərhləri nəzərdən keçrilmiş və həmin alimlərin mövzuya yanaşmaq metodunu əsas götürmüşdir.

2) الهداية في النحو . Müəllif əsərin müqəddiməsində qeyd edir ki, bu əsəri İbn Əl-Hacibin الكفاية kitabının üslubunda qələmə almış və onun yolunu izləməyə çalışmışam. Yuxarıda deyilənlərdən belə çıxır ki, müəllifin الكفاية في النحو əsəri İbn Hicabın الشافية əsəri, الهداية في النحو əsəri, isə onun الكافية əsərinə yazılmış şərhlərdir.

3) الحواشي على قصيدة البردة للبوصيري في مدح الرسول . Əl-Busurinin həzrət peyğəmbərin mədhinə həsr etdiyi əlli yeddi beytdən ibarət "Əl-Burdə" qəsidəsinə yazdığı şərh. İki hissədən ibarət bu əsərin birinci hissəsi 174, ikinci hissəsi isə 94 səhifədən ibarətdir.

Məhəmməd İbn Abdullah ibn Mahmudun tədqiqatımızın obyekti olan الكفاية في النحو əsəri bu istiqamətləri ehtiva edir:

1. Əsər ərəb dili morfologiyasının ən mühüm mövzularını ehtiva edir. Müəllif bu barədə yazır: فهذا مختصر في التصريف [4,85]
2. Əsər müəllim və tələbələrin ehtiyaclarını ödəməkdən ötrü yazılmışdır: جمّعت فيه من مسائه و مبادئه ما لا بدّ من معرفته لمحصّليه [5,85]
3. Əsərin sonunda qaydalarının şərhindən sonra ərəb xəttinin qaydaları göstərilir: و ألحقت به من قواعد الخط جملا وافية [6,85]
4. Əsər bilavasitə İbn Əl-Hacibin الهداية və الكافية kitablarının təsiri ilə yazılmışdır [7,85]

Kitab aşağıdakı metod üzrə qələmə alınmışdır:

Müəllif müqəddimədə Peyğəmbərə (s) salam və salavat göndərdikdən sonra bu məsələləri şərh etməyə başlamışdır:

1. Ərəb dilində sərf mövzusu qaydalarının ənənəvi şəkildə təhlil.

2. Müəllif təsrif mövzusunun şərhini bitirdikdən sonra ərəb yazısını hüsnü-xətt qaydalarını diqqətə çatdırır.

3. Müəllif kitabı müqəddimə, üç məqalə və nəticə hissəsi olaraq üç bölgüdə tərtib etmişdir.

Müqəddimə hissəsi gəldikdə, Məhəmməd İbn Abdullah onu iki qismə bölmüş, birinci bölümdə təsrifin tərifini və onun məqsədini şərh etmişdir. Ikinci qisimdə isə, sözün quruluşu, sərfin ölçüləri, sözün dəyişilmə qaydaları, mücərrəd sülasi, mücərrəd rübai və mücərrəd xümasinin yaranma qaydalarını və onlardan əmələ gələn formalar şərh olunur. Kitabın məna ilə bağlı olan birinci məqaləsi altı bölməni ehtiva edir.

Birinci bölmədə mücərrəd sülasi feil və onun mənası bildirilir, ondan yaranan ən çox yayılmış feil bablarının mənaları təfsilatı ilə şərh olunur. Burada mücərrəd rübai və ondan əmələ gələn feil bablarının formaları və onların mənalarınada aydınlıq gətirilir.

İkinci bölmədə müzare feildən danışan müəllif فَعَلَ, فَعِلَ və فَعُلَ formalarından əmələ gələn indiki-gələcək zaman feillərinin formasına diqqət yetirir, səhih və mutəll (zərf) feillərin yaranma üsullarını bildirir.

Üçüncü bölümdə feildən əmələ gələn isimlər bəhsinə nəzər salan müəllif onları aşağıdakı yeddi fəslə ayırır:

1) Məsdərlər. Mücərrəd sülasi məsdərlərdən bəhs edən müəllif onların formalarının çoxluğuna işarə edərək otuz dörd formadanibarət həmin formaların səmai (yadda saxlamaqla) öyrənildiyini bildirir. O, daha sonra sülasi mücərrəddən düzələn babların və rübailərin məsdər formalarından bəhs edir, onların أَفْعَلَ, فَعَّلَ və تَفَعَّلَ şəklində qiyasi formalar olduğunu qeyd edir. Müəllif bütün bunlardan sonra sülasidən əmələ gələn "mim məsdəri", "ismu əl-mərrati" və "ismu əl-nau" mövzusuna aydınlıq gətirir.

2) Burada "ismi-fail" və onun sülasi və qeyri-sülasi formalarda əmələgəlmə üsullarına aydınlıq gətirir.

3) Bu fəsildə ismi-məfulun sülasi və qeyri-sülasidən yaranan üsulları şərh edilir.

4) Dördüncü fəsldə sifət mövzusunu şərh edən müəllif sifətlərin daha çox فَعِلَ və فَعُلَ formalarından əmələ gəlməsini, فَعَلَ formasına gəlincə, ondan sifət əmələ gətirmək üçün nisbətən az istifadə olunduğunu bildirir.

5) Müəllif bu fəsildə müqaisə və üstünlük dərəcəsindən bəhs edərək bildirir ki, bu dərəcələr, əsasən أَفْعَلَ forması ilə əmələ gəlir.

6) Bu fəsildə ismi-məkan və ismi-zaman mövzusu şərh olunur. Bildirilir ki, bunlar sülasi mücərrəd və ondan əmələ gələn formalar və rübai mücərrəd və ondan əmələ gələn formalarnan düzəlir. Alim bildirir ki, bu iki forma eyni zamanda ismi-məful formasına uyğun gəlir.

7) Bölmənin yeddinci fəsli ismi-alət mövzusuna həsr olunmuşdur. Müəllif bunların ən məşhur formalarının aşağıdakı üç şəkildə olduğunu bildirir: مِفْعَلٌ, مِفْعَالٌ və مِفْعَلَةٌ.

Dördüncü bölmədə salim cəm və sınıq cəm mövzuları təhlil edilir, cəmliyin əlamətləri müəyyənləşdirilir. Müəllif sınıq cəm məsələsindən bəhs edərkən sülasi və rübai kəlmələrin istər ismi, istərsə də sifət formalarının müzəkkər və müənnəsdə olmaqla cəmlik formalarının yaranmasından danışır, onların az və nadir halda işlənən şəkillərini müəyyənləşdirir cəm və məchul arasındakı fərqi bildirir. Müəllif bütün bunlardan sonra xümasinin təsğir formasında olduğu kimi, onun sınıq cəm formasının işlənməsinin bəyənilmədiyni vurğulayaraq cəmin cəmi mövzusuna keçir.

Məhəmməd İbn Abdullah həmin ardıcıllıqla beşinci bölmədə təsğir mövzusuna keçərək bu məsələlərə diqqət yetirir: təsğirin tərifi, formaları: فُعَيْلٌ, فُعَيْعِلٌ, فُعَيْعِيلٌ yaranma üsulları, xümasidən əmələ gələn təsğir, iki köklü sözlərin təsğiri, sonunda "tə" müənnəslik əlaməti iştirak etməyən sülasi və rübai müənnəslərdən əmələ gələn təsğir, əlif məqsurə və əlif məmdudə ilə bitən sözlərin təsğiri, cəmin təsğiri, tərkibində iki zaid hərfin olduğu sözlərin

təsğiri, müstəsnalıq təşkil edilən təsğir formaları, məbni kəlmələrin təsğir qaydaları, təsğir olunmayan sözlər.

Müəllif altıncı bölmədə mənsub mövzudan bəhs edərək bu məsələlərə aydınlıq gətirir: o, mənsubun tərifini bildirdikdən sonra onun qiyasi və müstəsna hal olmaqla iki yerə bölündüyünü bildirir. Dilçi bu bölgüdən sonra qiyasinin növlərindən bəhs edərək onların on yerə bölündüyünü qeyd edir:

1) Müənnəslik bildirən "tə" nin həzfi, təsniyə və cəmdə olan "nun" məsələsi
2) Sınıq cəmdə olan sözün tək vəziyyətinə gətrildikdən sonra ondan nisbət əldə etmək (məs: مسجدي-مساجد)
3) Sonuncu hərfdən əvvəlki kəsrə və ya dəmmə olarsa, onun fəthəyə çevrilməsi
4) فُعَيَّلَة, فعِيلَة və فعُولَة formalarında "yə" və "vav" ın həzf olunması
5) Sonuncu hərfdən əvvəl təşdidli "yə" nin həzf olunaraq sükunlu "yə" yə çevrilməsi (məs:أُسَيِّدٌ =أُسَيْدِيٌّ, حُمَيِّرٌ=حُمَيْرِيٌّ).
6) Sözün sonunda müənnəslik həmzəsinin əlifdən sonra "vav" a çevrilməsi (məs: صحراوي).
7) Sonda bir neçə "yə" hərfinin bir yerdə gəlməsinə yol verməmək üçün sözün sonundakı "yə" hərfinin (الالف بصورة الياء) həzf edilməsi (məs: رحوي-رحىً).
8) Sonda gələn kəsrəli "yə" hərfinin həzf edilməsi (məs: عموي-عمٍي)
9) İkihərfli sözlərdə üçüncü hərfin həzfdən sonra yenidən bərpa olunması (məs: اخوي-اخ).
10) İzafət olmayan tərkiblərdə ikinci hissənin həzf olunması (məs: بعلبك-بَعْلِي: تَأَبَّطَ شَرًا-تَأَبّطِيٌّ).

Müəllif bütün bunlardan sonra müstəsna hallarda istifadə olunan nəsb formalarından, o cümlədən "yə" sonluğunun işlənmədiyi formalardan bəhs edir (məs: دَارِعٌ-فَاعِلٌ: ثَوَّابٌ-فَعَّالٌ) və s.

**Nəticə**

*Məqalədə XV əsrin məhşur Misir dilçilərindən biri Məhəmməd ibn Abdullah ibn Mahmudun "Əl-Kifəyətu fi n-Nəhv" əsərinin təhlilinə cəhd göstərilir. Bildirilir ki, Misirin islam vilayətləri arasında öz nüfuzunu bərpa etdiyi belə bir dönəmdə dilçiliyin müxtəlif bölmələrini ehtiva edən əsərlər arasında adıçəkilmiş müəllifin bu kitabı özünəməxsus yer tutur. O, sələflərinin yolu ilə gedərək və ərəb qrammatikasını ənənəvi şəkildə araşdıraraq sözlərin üç bölgü əsasında təhlilini verdikdən sonra feil bablarının yaranma üsullarını geniş şəkildə şərh etmişdir.*

**Ədəbiyyat siyahısı:**


1. مجلة العربي،القاهرة، ١٩٦٧
2. محمد حمادة ماهر الوثائق السياسية و الادارية للعصر المملوكي، ١٩٨٠
3. عمر موسى باشا، تاريخ الادب العربي- العصر المملوكي. القاهرة، ٢٠٠٤
4. قسم التحقيق محمد بن عبدالله بن محمود، الكفاية في النحو، بيروت،٢٠٠١،
5. محمد بن عبدالله بن محمود، الكفاية في النحو، بيروت،٢٠٠١، قسم التحقيق
6. محمد بن عبدالله بن محمود، الكفاية في النحو، بيروت،٢٠٠١، قسم التحقيق
7. محمد بن عبدالله بن محمود، الكفاية في النحو، بيروت،٢٠٠١، قسم التحقي


**Айтен Ализаде**

**О произведении Мухаммеда Ибн Абдуллах Ибн Махмуда «Аль-кифаяту фин-Нахв»**

В статье рассматривается анализ произведения одного из известных лингвистов Египта XV века Мухаммеда Ибн Абдуллах Ибн Махмуда «Аль-кифаяту фин-нахв».

В эпоху, когда Египет восстановил своё влияние среди исламских провинций, данная книга упомянутого автора заняла особое место среди произведений, охватывающих различные отрасли языкознания. Книга, следуя традициям предшественников и, традиционно исследуя арабскую грамматику, рассматривает слова на основе трёх разделов, а затем подробно описывает пути возникновения пород глагола.

***Ключевые слова:*** *морфология, грамматика, словарь, глагол*

**Ayten Alizade**

**About the work Muhammed ibn Abdullah ibn Mahmud "Kifayatu fin-Nahv"**

The article attempts to analyze the work of "al-Kifayatu fi n-Nahv" of one of the most prominent Egyptian linguists of the 15th century, Muhammad ibn Abdullah ibn Mahmud. It is reported that this book has a special place among the works of various parts of linguistics in such a period during which Egypt restored its reputation among the Islamic provinces. He, like his predecessors, exploring Arabic grammar in the traditional way, widely commented on the methods of the formation of verb forms, after giving an analysis of words based on three divisions.

***Keywords:*** *morphology, grammar, dictionary, verb*

Redaksiyaya daxil olma tarixi: 16.07.2019
Çapa qəbul olunma tarixi: 11.09.2019

Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Nərgiz Əfəndiyeva** tərəfindən çapa tövsiyə olunmuşdur.